*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*Special Issue*
*Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research (15 October 2025)*
*Derleme Makalesi | Review Article*
*Geliş tarihi |Received:27.07.2025*
*Kabul tarihi |Accepted:30.09.2025*
*Yayın tarihi |Published:15.10.2025*

**Salatın Hacıyeva**

*https://orcid.org/0009-0004-4913-4074*
*PhD in Psychology, Associate Professor, Nakhchivan State University, Faculty of Education, Department of Pedagogy and Psychology, Nakhchivan, Azerbaijan, salatinhaciyeva72@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Hacıyeva, S. (2025). Azərbaycanda Hərbi Psixoloqların Fəaliyyət İstiqamətlərinin Təhlili. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (Special Issue: *Education, Environment, and Sustainable Development – Multidimensional Approaches and Scientific Research*), 110-116.

# Azərbaycanda Hərbi Psixoloqların Fəaliyyət İstiqamətlərinin Təhlili

***Xülasə***

*Məqalədə Azərbaycanda hərbi psixologiya sahəsinin mövcud vəziyyəti, hərbi psixoloqların fəaliyyət istiqamətləri, qarşılaşdıqları əsas çətinliklər və inkişaf perspektivləri elmi baxımdan təhlil olunur. Müharibə və postmüharibə şəraitində hərbi qulluqçuların psixoloji rifahının təmin edilməsinin strateji əhəmiyyəti vurğulanır. Araşdırmada qeyd olunur ki, hərbi psixoloqun funksional fəaliyyəti tədqiqat, proqnostik, normativ, məsləhətçi, korreksiyaedici, inkişafetdirici, idarəetmə və interaktiv funksiyaları, eləcə də döyüş nümunəsi funksiyasını əhatə edir. Bu funksiyalar sülh dövründə də həyata keçirilsə də, döyüş şəraitində onların məzmunu və rolu daha da dərinləşir və spesifik xarakter alır. Tədqiqat və proqnostik funksiyalar şəxsi heyətin qarşıdan gələn və davam edən döyüş fəaliyyətinin psixoloji şəraitinin proqnozlaşdırılması, qiymətləndirilməsi və psixoloji modelinin qurulmasında mühüm əhəmiyyət kəsb edir. Aparılmış təhlillər göstərir ki, Azərbaycanda hərbi psixologiya sahəsinin inkişafı qarşısında hələ də müəyyən maneələr mövcuddur. Bunlara kadr çatışmazlığı, normativ-hüquqi mexanizmlərin qeyri-kafiliyi və ictimai stereotiplərin davamlılığı daxildir. Məqalədə bu sahənin elmi əsaslarla inkişaf etdirilməsi, peşəkar kadr hazırlığının gücləndirilməsi və hərbi psixoloqların fəaliyyətinin institusional səviyyədə təkmilləşdirilməsi üçün bir sıra praktik və elmi təkliflər irəli sürülür.*

***Açar sözlər:*** *Hərbi Psixologiya, Hərbi Psixoloq, Psixoloji Dəstək, Posttravmatik Stress Pozuntusu, Hərbi Qulluqçu*

# Analysis of the Activity Directions of Military Psychologists in Azerbaijan

***Abstract***

*The article provides a scientific analysis of the current state of military psychology in Azerbaijan, the main directions of military psychologists' activities, the challenges they face, and prospects for development. The strategic importance of ensuring the psychological well-being of military personnel during wartime and post-war periods is emphasized. The study notes that the functional scope of a*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

*military psychologist includes research, prognostic, normative, consultative, corrective, developmental, managerial, and interactive functions, as well as the function of serving as a combat role model. Although these functions are also performed during peacetime, their content and significance deepen and acquire a more specific character under combat conditions. The research and prognostic functions play a crucial role in predicting, assessing, and modeling the psychological conditions of upcoming and ongoing combat operations. The analysis reveals that the development of military psychology in Azerbaijan still faces several challenges, including a shortage of qualified personnel, insufficient normative and legal mechanisms, and the persistence of public stereotypes. The article proposes several practical and scientific recommendations aimed at the scientific advancement of the field, strengthening professional training, and improving the institutional framework for the activities of military psychologists.*

***Keywords:*** *Military Psychology, Military Psychologist, Psychological Support, Post-Traumatic Stress Disorder, Military Personnel*

## Giriş

Hərbi psixologiya müasir dövrdə ordu quruculuğunun mühüm tərkib hissəsinə çevrilmişdir. Bu sahə silahlı qüvvələrin şəxsi heyətinin psixoloji davamlılığını artırmaq, döyüş hazırlığını gücləndirmək və posttravmatik vəziyyətlərin idarə olunması ilə məşğul olur. Xüsusilə müharibə təcrübəsi yaşamış və münaqişə bölgəsində yerləşən ölkələrdə hərbi psixoloqların fəaliyyəti daha da aktuallaşır. Azərbaycan Respublikası 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsindən sonra hərbi psixologiya sahəsinə diqqət xeyli artmış, hərbi psixoloqların fəaliyyəti daha sistemli və vacib bir istiqamətə çevrilmiş, bu sahədə daha məqsədyönlü siyasət həyata keçirilməyə başlamışdır. Bu məqalənin məqsədi Azərbaycanda hərbi psixoloqların fəaliyyəti üzrə mövcud vəziyyəti təhlil etmək və sahənin inkişafı üçün elmi əsaslı təkliflər irəli sürməkdir.

Dünyanın bir sıra aparıcı ölkələrinin hərbi-siyasi rəhbərliyi silahlı qüvvələrin yüksək mənəvi və psixoloji vəziyyətinin qorunması problemini milli təhlükəsizlik sahəsində prioritet məsələlərdən biri hesab edir, döyüşlərin orqanizmə və psixikaya təzyiqini aşağı salmaq üçün ciddi səy göstərirlər. Ordusu olan hər bir ölkə bu məsələlər üzərində işləyir, hərbçilərin yalnız fiziki cəhətdən deyil, psixoloji cəhətdən də gücləndirilmələrinin, itkilərin minimuma endirilməsinin yollarını axtarır (Hacıyeva, 2023). Müasir hərbi sistemlərin gücü təkcə texniki və fiziki hazırlıqla deyil, şəxsi heyətin psixoloji dayanıqlılığı ilə də ölçülür. Xüsusilə münaqişə bölgəsində yerləşən və müharibə təcrübəsi yaşamış ölkələrdə hərbi qulluqçuların psixoloji vəziyyəti milli təhlükəsizlik və hərbi effektivlik baxımından böyük əhəmiyyət kəsb edir. Müharibə xalqın və onun Silahlı Qüvvələrinin maddi və mənəvi gücünün hərtərəfli sınağıdır. Onun gedişatı və nəticəsi Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyətindən asılıdır (Rüstəmov, 2012). Bu baxımdan, hərbi psixoloqların rolu olduqca əhəmiyyətlidir.

Onlar yalnız müharibə öncəsi hazırlıqda deyil, həmçinin döyüş zamanı və sonrasında da hərbçilərin psixoloji sağlamlığının qorunmasında əsas vəzifələri yerinə yetirirlər. Hərbi psixoloqlar döyüşə hazırlıq mərhələsində əsgərlərin psixoloji davamlılığını qiymətləndirir,

stressə qarşı dözümlülüklərini artırmaq üçün təlimlər təşkil edir. Bu mərhələdə onların əsas vəzifəsi əsgərləri ekstremal şəraitə hazırlamaq, qorxu və panika kimi halların öhdəsindən gəlməyə kömək etməkdir. Hərbi psixoloqlar tərəfindən psixoloji testlər, fərdi və qrup terapiyaları vasitəsilə əsgərlərin ruhi vəziyyətləri analiz olunur, əsgərlərin mənəvi-psixoloji durumu izlənilir, döyüş stresini azaltmaq üçün fərdi və qrup dəstəyi təmin edilir, travmatik hadisələrdən sonra ilkin psixoloji yardımı göstərilir.

Xüsusilə, posttravmatik stress pozuntusunun (PTSP) qarşısının alınması və ilkin simptomların vaxtında aşkar edilməsi üçün döyüş bölgəsində psixoloqların mövcudluğu həyati əhəmiyyət daşıyır. Döyüş bitdikdən sonra hərbçilər sivil həyata uyğunlaşmaqda çətinlik çəkə bilərlər. Bu mərhələdə psixoloqların işi yenidən ön plana çıxır. Onlar psixoloji reabilitasiya proqramları həyata keçirir, ailələrə məsləhət xidməti təqdim edir, travma sonrası depressiya, yuxusuzluq, aqressiv davranışlar və digər psixoloji problemlərlə mübarizədə yardımçı olurlar.

Hərbi psixoloq həmçinin komandir heyəti ilə sıx əməkdaşlıq edir. Əsgərlərin psixoloji hazırlıq səviyyəsi barədə komandirə məlumat verir, komandanın döyüş tapşırıqlarını psixoloji cəhətdən daha səmərəli planlaşdırmasına kömək edir. Döyüş əməliyyatlarının psixoloji təminatı mürəkkəb, çoxölçülü, çoxsəviyyəli fəaliyyətdir. Hərbi döyüş əməliyyatlarının psixoloji təminatının təşkili və həyata keçirilməsi prosesinə geniş subyektlər – komandirlər, qərargahlar, hərbi komandanlıq orqanları, tibb işçiləri, hərbi alimlər və hərbi qulluqçuların özləri – cəlb olunur. Bununla belə, bu prosesin "hərbi hissə" və "təşkiletmə" əlaqələrində həyata keçirilməsində ən mühüm rol psixoloqa məxsusdur.

Döyüş şəraitində psixoloqun rolu və yeri onun yerinə yetirdiyi funksiyalar, vəzifəli şəxslərlə qarşılıqlı əlaqə sistemi, vəzifələrinin icrasının mərhələləri və ardıcıllığı, döyüşə psixoloji dəstək sisteminə verdiyi töhfənin "çəkisi" ilə müəyyən edilir. Həmçinin hərbi hissələrdə şəxsiyyətlərarası münasibətlərin də yenidən qurulması tələbatı ortaya çıxır. Buna görə də hərbi hissələrdə və bütün digər hərbi qurumlarda psixoloji yanaşmanın vacibliyi prioritet məsələlərdən hesab olunur (Əliyev & Gözəlov, 2000).

**Döyüş şəraitində psixoloqun funksiyaları**

Psixoloqun funksional fəaliyyət sahəsi tədqiqat, proqnostik, normativ, məsləhətçi, korreksiyaedici, inkişafetdirici, idarəetmə, interaktiv və döyüş nümunəsi funksiyalarını əhatə edir. Bu fəaliyyət istiqamətləri nəzəri, tətbiqi və praktiki səviyyədə həyata keçirilən psixoloji işin əsas elementlərini birləşdirir. Sadalanan funksiyalar sülh dövründə də icra olunur, lakin döyüş şəraitində onlar yeni, xüsusi məzmun və məqsədlərlə tamamlanır.

**Tədqiqat və proqnostik funksiya** şəxsi heyətin qarşıdan gələn və ya davam edən döyüş fəaliyyətinin psixoloji şəraitinin öyrənilməsini, qiymətləndirilməsini və psixoloji modelinin qurulmasını əhatə edir. Belə bir model, əsgərlərin döyüş fəaliyyətində hansı motivlərin və psixoloji keyfiyyətlərin mühüm rol oynadığını, bu keyfiyyətlərin tapşırıqların uğurlu icrasına necə təsir etdiyini müəyyənləşdirməyə imkan verir.

**Normativ funksiya** hərbi qulluqçuların psixoloji imkanlarının göstəricilərinin müəyyənləşdirilməsinə, onların döyüş meydanında fəal və fədakar davranışlarını təmin edən standartların işlənib hazırlanmasına yönəlib. Psixoloq bu zaman döyüşçülərin hansı bilik, bacarıq və münasibətlərə malik olmalı olduğunu, hansı psixoloji əhval-ruhiyyənin formalaşdırılmasının vacibliyini müəyyən edir.

**Diaqnostik funksiya** şəxsi heyətin psixoloji resurslarının (TPR) cari vəziyyətinin öyrənilməsi və qiymətləndirilməsini, döyüş əməliyyatlarının effektivliyinə təsir edən faktorların müəyyənləşdirilməsini nəzərdə tutur.

**Məsləhətçi funksiya** döyüş əməliyyatlarının psixoloji aspektləri, həyati təhlükə vəziyyətlərində insan davranışının mexanizmləri haqqında biliklərin aydınlaşdırılması və şəxsi heyətin psixoloji imkanlarının artırılması istiqamətində həyata keçirilir. Bu çərçivədə psixoloqlar həm komandirlərə, həm də hərbi qulluqçulara psixoloji dəstək və özünütənzimləmə üsulları barədə tövsiyələr verirlər.

**Korreksiyaedici və inkişafetdirici funksiya** əsgərlərin psixoloji imkanlarının qorunması və bərpasını təmin etməyə yönəlmişdir. Bu funksiyanın həyata keçirilməsi aşağıdakı formaları əhatə edir: döyüş hazırlığına psixoloji dəstək, psixoloji təlim, psixoprofilaktika, psixoloji reabilitasiya və psixi gigiyena tədbirləri.

**İdarəetmə funksiyası** psixoloji iş qruplarının rəhbərlərinin aşağı səviyyəli psixoloqların seçilməsi, yerləşdirilməsi, təlimi və fəaliyyətinin monitorinqi ilə bağlı fəaliyyətini nəzərdə tutur. Bu funksiya, psixoloji işin planlaşdırılmasında və həyata keçirilməsində operativ əlaqələndirməni təmin edir.

**Qarşılıqlı fəaliyyət (interaktiv) funksiyası** döyüş şəraitində psixoloji işin effektivliyinin təmin edilməsi üçün komandirlər, qərargah, tibb işçiləri və digər məsul şəxslərlə qarşılıqlı əməkdaşlığın həyata keçirilməsini tələb edir. Psixoloq düşmən tərəfin davranış və psixoloji xüsusiyyətləri haqqında məlumat toplayır və bu bilgiləri qərargahla paylaşaraq psixoloji təhlil əsasında qərarların qəbuluna kömək göstərir.

**Döyüş nümunəsi funksiyası** isə psixoloqun əsgərlər üçün mənəvi nümunə kimi çıxış etməsini nəzərdə tutur. Psixoloq döyüş şəraitində öz davranış və emosional sabitliyi ilə əsgərlərə örnək olmalıdır. Əgər psixoloq qorxu və çaşqınlıq göstərərsə, bu, onun peşəkar

nüfuzuna mənfi təsir edər və şəxsi heyətin psixoloji özünüsəfərbərlik qabiliyyətinə inamı azalar (Karayani & Sıromyatnikov, 2016b). Döyüşçülər digər mütəxəssislərdə müəyyən zəiflikləri bağışlaya bilsələr də, psixoloqda belə halları qəbul etməzlər. Psixoloqun "psixikanı idarə etməyi bacaran" bir fiqur kimi imicinin itirilməsi, onun rəhbərlik etdiyi psixoloji dəstək sisteminin effektivliyinə ciddi zərbə vurur.

Sadalanan funksiyaların təhlili göstərir ki, döyüşün müxtəlif mərhələlərində psixoloqun əsas vəzifələri şəxsi heyətin döyüş əməliyyatlarına psixoloji hazırlanmasında fəal iştirak etmək, döyüş motivasiyasını gücləndirmək və psixoloji sabitliyi qorumaqdan ibarətdir. Ordunun psixoloji hazırlığını təşkil edərkən müasir müharibələrin əsgərlərin mənəvi gücünə təsir mexanizmləri nəzərə alınmalıdır, çünki bu, şəxsi heyətin döyüş keyfiyyətlərinin məqsədyönlü şəkildə formalaşdırılması üçün əsas şərtlərdəndir (Şəfiyeva, 2006).

**Döyüş şəraitində hərbi psixoloqun vəzifələri**

***Döyüş əməliyyatlarının psixoloji şəraitini proqnozlaşdırmaq və təhlil etmək** Psixoloqun əsas vəzifələrindən biri qarşıdan gələn döyüş əməliyyatlarının psixoloji şəraitini qabaqcadan proqnozlaşdırmaq, hərbi personalın psixoloji imkanlarını və döyüş tapşırıqlarına uyğunluğunu müəyyən etməkdir. Bu fəaliyyət düşmən qoşunlarının şəxsi heyətinin psixoloji xüsusiyyətlərinin, onların güclü və zəif tərəflərinin, müxtəlif döyüş vəziyyətlərində ehtimal olunan davranış modellərinin və sosial-psixoloji reaksiyalarının öyrənilməsi ilə başlayır. Eyni zamanda, psixoloq münaqişə bölgəsində ictimai rəyin və əhalinin əhval-ruhiyyəsinin tədqiqi ilə məşğul olmalı, onların qarşı tərəfə münasibətini və hərbi hissənin şəxsi heyətinə mümkün təsirini proqnozlaşdırmalıdır. Psixoloq, həmçinin, qarşı tərəfin taktikasının və qərarlarının əsgərlərin davranış və emosional sabitliyinə təsir mexanizmlərini qiymətləndirə bilməlidir. Döyüşdə üstünlük çox vaxt innovativ taktikalardan və silah tətbiqi üsullarından asılı olur. Buna görə də psixoloq, döyüş tapşırıqlarının icrasına təsir edən psixoloji amilləri təhlil edərək onların effektivliyini müəyyənləşdirməlidir. Psixoloqun mühüm vəzifələrindən biri də döyüşün təbii, coğrafi, iqlim və texniki şərtlərinin şəxsi heyətin psixikasına təsirini qiymətləndirməkdir.

Yuxu keyfiyyəti bu kontekstdə mühüm psixoloji amil hesab olunur. Araşdırmalara görə, yuxusuzluq döyüş stresinin əsas səbəblərindən biridir və əsgərlərin fəaliyyət səmərəliliyini ciddi şəkildə azaldır. ABŞ mütəxəssislərinin apardığı tədqiqatlar göstərir ki, döyüş performansı yuxu müddəti ilə birbaşa əlaqəlidir. Buna görə də psixoloq, qoşunların döyüş hazırlığını qiymətləndirərkən yuxu keyfiyyətini nəzərə almalı və psixoloji hazırlığın səviyyəsinə uyğun tənzimləmə aparmalıdır (Klauzevich, 2007).

***Hərbi qulluqçuların psixoloji uyğunluğunun təmin edilməsi** Psixoloq, döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün hərbi qulluqçuların təyinatlara uyğun yerləşdirilməsində iştirak etməlidir. Bu zaman o, hərbi personalın psixoloji imkanlarını, şəxsiyyətlərarası uyğunluğunu, peşəkar təcrübəsini və qorxuya qarşı reaksiyalarının dinamik göstəricilərini nəzərə almalıdır. Hərbi bölmələrin psixoloji baxımdan balanslı formalaşdırılması üç səviyyəli uyğunluğun təmin edilməsini tələb edir: psixofizioloji, peşəkar və dəyər yönümlü.

**Psixofizioloji uyğunluq**, əsasən temperament və stressə qarşı dayanıqlıq səviyyəsi ilə müəyyən olunur.

**Peşəkar uyğunluq**, hərbi təlim və təcrübəyə əsaslanır.

**Dəyər yönümlü uyğunluq** isə əsgərlərin mənəvi dəyərləri və motivasiyaları arasındakı harmoniya ilə bağlıdır.

Bölmələrin formalaşdırılması zamanı bu üç səviyyə nəzərə alınmalıdır ki, döyüş şəraitində effektiv əməkdaşlıq və qarşılıqlı inam təmin edilsin. Əsgərlərin qorxu səviyyəsinə görə döyüş tapşırıqlarının mərhələləndirilməsi də psixoloqun diqqət mərkəzində olmalıdır.

***Psixoloji maarifləndirmə və reabilitasiya işinin təşkili**

Psixoloqun mühüm funksiyalarından biri hərbi qulluqçular arasında psixoloji maarifləndirmə işini aparmaqdır. O, döyüş gərginliyinin və psixi travmanın simptomlarını izah etməli, düşmənin qeyri-ənənəvi taktikalarının və psixoloji təsir üsullarının nəticələrini əsgərlərə çatdırmalıdır. Bunun üçün psixoloq fərdi və qrup söhbətləri təşkil etməli, videoçarxlar və maarifləndirici materiallar vasitəsilə psixoloji hazırlıq səviyyəsini artırmalıdır. Psixoloq, eyni zamanda, hərbi qulluqçulara psixi özünütənzimləmə üsullarını və təcili psixoloji yardım göstərmə bacarıqlarını öyrətməli, hərbi hissələrdə neqativ sosial-psixoloji halların qarşısını almaq üçün əməli dəstək verməlidir. Döyüş əməliyyatları zamanı psixoloqun fərdi görüş imkanları məhdud ola bilər, lakin o, hərbi hissənin psixoloji təminatı üçün təkliflər hazırlamağa daim hazır olmalıdır. Döyüş əməliyyatları başa çatdıqdan sonra psixoloqun fəaliyyəti psixoloji reabilitasiya və sosial adaptasiya mərhələsinə keçir. Bu mərhələdə o, travma almış hərbi qulluqçulara psixoloji yardım göstərir, demobilizasiya və rotasiya prosesində olanların adaptasiyasına dəstək verir. Nəticədə, psixoloq döyüş əməliyyatlarının nəticələrinə əsaslanaraq hərbi hissələrdə psixoloji iş sisteminin təkmilləşdirilməsi və optimallaşdırılması üçün elmi əsaslı təkliflər hazırlayır.

**Nəticə**

Bölmənin (hərbi hissənin) döyüş əməliyyatlarına psixoloji hazırlığının təşkilində psixoloqun funksiyaları və vəzifələri həlledici əhəmiyyət daşıyır. Elmi əsaslara söykənən, situasiyanı dəqiq qiymətləndirən və praktiki olaraq yerinə yetirilə bilən psixoloq təklifləri

döyüşün mühüm parametrlərinin və xarakteristikalarının müəyyənləşdirilməsində əsas rol oynayır. Hərbi əməliyyatların psixoloji təminatına sistemli yanaşma tələb olunur: bu, fəaliyyətin obyekt-subyekt sərhədlərinin dəqiq müəyyən edilməsi, psixoloji işin iyerarxik səviyyələrinin formalaşdırılması və tədbirlərin həyata keçirilməsi üçün operativ-məntiqi alqoritmlərin işlənib hazırlanmasını vacib edir. Sistematik və peşəkar şəkildə təşkil olunmuş psixoloji dəstək hərbi qulluqçuların psixoloji resurslarını genişləndirməyə, onların döyüş qabiliyyətini və sağ qalma şansını artırmağa imkan verəcəkdir. Nəticə etibarilə, hərbi psixoloji təminatın effektivliyi yalnız fərdi psixoloji müdaxilələrin keyfiyyətindən deyil, həm də onların strukturlaşdırılmış, komanda və komanda-komanda səviyyəsində koordinasiyalı şəkildə həyata keçirilməsindən asılıdır. Bu səbəbdən müdafiə sistemlərində psixoloji hazırlığın uzunmüddətli planlaşdırılması, peşəkar kadrlara investisiya və elmi-tədqiqat əməkdaşlıqlarının gücləndirilməsi prioritet istiqamət olmalıdır.

## Ədəbiyyat

Əliyev, N., & Gözəlov, S. (2000). *Hərbi qulluqçuların döyüş fəaliyyətinin və xidmətinin psixoloji təhlili.* BABKM.

Hacıyeva, S. (2023). Hərbi xidmətçilərin döyüşə psixoloji hazırlığı. *Qədim Diyar Journal, 5*(8), 20–25.

Karayani, A. Q., & Sıromyatnikov, İ. V. (2016). *Voennaya psixologiya.*

Karayani, A. Q., & Sıromyatnikov, İ. V. (2016). *Voennaya psikhologiya: Uchebnik dlya vuzov.* Yurayt Publishing House.

Klauzevich, K. (2007). *O voyne.* Eksmo.

Rüstəmov, M. (2012). *Əsgər psixologiyasının formalaşmasının psixoloji əsasları.* Əcəmi Nəşriyyat–Poliqrafiya Birliyi.

Şəfiyeva, E. (2006). *Zabit hazırlığının sosial-psixoloji məsələləri.* Elm.

***Telif ve Lisans Bildirimi***

*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.*